**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AZERBAİJAN NATİONAL ACADEMY OF SCIENCES**

**Hüseyn Cavidin Ev Muzeyi**
**Home Museum of Husein Javid**

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**İnstitute of Literature named after Nizami Ganjavi**

# HÜSEYN CAVİD ƏBƏDİYYƏTİ

**(Hüseyn Cavid-136)**

***Respublika elmi konfransın materialları***

***Materials of Republik Scientific Conference on***

**HUSEIN JAVID'S ETERNITY**

**(Husein Javid-136)**

Azərbaycan Milli
Kitabxanası

**Bakı - 24.X.2018**

Fil.ü.f.d., dosent **Səba NAMAZOVA**
*Gəncə Dövlət Universiteti*

# HÜSEYN CAVİDİN ROMANTİK QƏHRƏMANLARI

Hüseyn Cavid ədəbiyyatımızın klassiki, orijinal yaradıcılığa malik qüdrətli söz ustadlarından biridir. XX yüzil Azərbaycan romantizmi onun adı, işıqlı siması, özgün imzası ilə bilavasitə bağlıdır. Hüseyn Cavid yaradıcılığı ədəbi düşüncədə son dərəcə qanunauyğun və əlamətdar bir hadisədir.

Bəllidir ki, bədii yaradıcılığa şeirlə başlayan Hüseyn Cavid ilk dramaturji əsəri olan "Ana"nı 1910-cu ildə qələmə almışdır. 1937-ci ilə qədər ardıcıl şəkildə 20-dən artıq pyes yazan ustad sənətkar Azərbaycan ədəbiyyatı tarixində mənzum dramaturgiyanın banisi sayılır. "Maral", "Şeyx Sənan", "Uçurum", "Şeyda", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı", "Atilla", "Koroğlu" ssenarisi, "Azər" poeması və digər silsilə şəkildə yazılmış əsərlər yalnız Cavid yaradıcılığının deyil, ümumən ədəbiyyatımızın bənzərsiz nümunələridir.

Beləliklə, dramaturq kimi ədəbi aləmə 1910-1912-ci illərdə qədəm basan Hüseyn Cavidin elə ilk əsərindən başlayaraq gələcəkdə də davamlı şəkildə uğurlu yaradıcılıq sərgiləyəcəyi aydın sezilirdi. Bəşəri duyğular, xüsusən də insan ləyaqətinin önə çəkilməsi, ülvi hisslərin tərənnümü Cavidin bütünlükdə yaradıcılığının başlıca məziyyəti kimi diqqəti cəlb edir.

Professor Yaşar Qarayevin qeyd etdiyi kimi:

"Öz yaradıcılığı ilə H.Cavid Azərbaycan dramaturgiyasının mövzu sərhəddini genişləndirir, tragik xarakterin, romantik qəhrəmanın, dramatik konflikt və koliziyaların yeni tiplərini yaradır, qəhrəmanı qadın olan ilk Azərbaycan faciəsini qələmə alır, onu humanist, nəcib və bəşəri ideyalarla daha da zənginləşdirir. H.Cavid bizim dramatik poeziyada qüvvətli bir faciənəvis, mənzum və romantik dramın yaradıcısı kimi unikal və şərəfli bir yer tutur" [5, 7].

Professor Kamran Əliyevin qənaətincə isə "XX əsr Azərbaycan romantizmi öz kökləri ilə milli klassik ənənəyə və klassik Şərq mütəfəkkir fikrinə daha çox bağlı olmuşdur. Bu cəhət romantiklərin bədii əsərlərindəki ideyalarda, ictimai-siyasi mətləblərdə, mənəvi-əxlaqi problemlərdə və nəhayət ədəbi-nəzəri görüşlərində əks edilmişdir" [4, 18].

Maraqlıdır ki, Hüseyn Cavid poeziyasında romantizmlə realizm vəhdətdə nəzərə çarpır. Sənətkar xeyirin qələbəsinə romantik xəyallarla yanaşdığı kimi, şərin məhvi üçün də gur səsini ucaldırdı.

Dövrün sərt qadağaları, keçilməz sədləri ilə qarşılaşmasına, amansız zərbələrə məruz qalmasına rəğmən, Cavid öz ədəbi mövqeyini yaradıcılığı boyunca qoruyub-saxlamış, söz xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir.

Bu baxımdan böyük sənətkarın yaradıcılığında poema janrının məxsusi yeri vardır. Şairin XX əsrin başlanğıcında qələmə alınmış həmin janrda ilk əsərləri lirik-romantik, yaxud romantik-fəlsəfi mahiyyət daşıyırdı. Onların əksəriyyətində süjet əlamətləri, çoxsaylı obrazlar demək olar ki, yoxdur. Bu poemalar əsasən lirik-romantik monoloqlardan ibarətdir. İnsanlara, həyata romantik münasibət, dərin fəlsəfi ümumiləşdirmələr Cavidin poemalarının da əsasını təşkil edir. Görkəmli şairin qələminə məxsus "Bir ahi-məzlumanə" (1907), "İştə bir divanədən bir xatirə" (1912), "Hübuti-Adəm" (1013) adlı əsərlərdə epik təsvirdən daha çox lirik düşüncələr yer almışdır. Belə ki, "Hübuti-Adəm" poemasında Adəmlə Həvvanın münasibətlərindən bəhs edən hadisənin təsviri ilə Cavid əslində nəfsin bais olduğu fəlakətlər barədə poetik mülahizələrini irəli sürmüşdür:

Əmin ol, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur [1, 29].

"Bir ahi-məzlumanə" poemasında isə sənətkar Vətənin ağır vəziyyətinə qarşı dərin təəssüf hisslərini ifadə etmişdir.

Hüseyn Cavid yaradıcılığında ideya və sənətkarlıq baxımından ən kamil əsər "Azər" poemasıdır. Bu poema şairin 1926-cı ildə Almaniyada müalicə olunarkən yazmağa başladığı və tamamlaya bilmədiyi ən mükəmməl epik əsəridir. Akademik Məmməd Cəfər "Azər"in janr baxımından Cavidin bütün əsərlərindən fərqləndiyini məxsusi vurğulayaraq onu mənzum dastan adlandırmış, bu xüsusda fikirlərini belə ümumiləşdirmişdi:

"Azər" bədii forma etibarilə klassik dastanlardan fərqlənir. Burada müəyyən süjet ətrafında bir hadisədən deyil, bir, çox hadisələrdən, tiplərdən bəhs olunur. Dastanın hər bir parçası başqalarından tamamilə fərqlənən xüsusi həyat hadisələrini, insanları əhatə edir. Bu bir növ yeni dastan, yeni epik poema forması idi" [3, 184-185].

Poemada Azərin səyahətləri geniş şəkildə yer almış, onun vətənini gəzib dolaşarkən Xəzər sahilinə gəlişi təsvir olunmuşdur. Burada bütün qeyd edilənlərin fonunda köhnəliklə yeniliyin mübarizəsi ön planda saxlanılmışdır.

"Azər" poeması Hüseyn Cavidin Şərq və Qərbə, o cümlədən Şərq-Qərb münasibətləri müstəvisində Azərbaycana baxışını müfəssəl əks etdirən sənət incisidir. Azərin Qərbə və Şərqə səyahətləri yeni tarixi şəraitdə dünyanın gedişini izləmək, inkişafın ən uyğun yolunu müəyyənləşdirmək məramına söykənir:

Şərq elləri irişilməz "xəyal" için yaşarkən,
Qərb aləmi az da olsa "həqiqət"dən xoşlanır.
Şərqin sönük duyğusunu afyon ruhu oqşarkən
Onlar yeni bir silah kəşfini səadət sanır.
Şərq uğraşır yalnız "ölməyim" deyə,
Qərb elləri maildir öldürməyə.
Ya o, ya bu qoşar durar hər bir dilək peşində,
Məqsəd ancaq yarını yoq, bir həyatı xoş bulmaq.
Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtulmaq [1, 194].

Hüseyn Cavidin "Azər" dastan-poemasının böyük bir hissəsi əruz vəznində, az bir qismi isə heca vəznində yazılmışdır. Şairin hər iki vəzndə qələmə aldığı əsər yüksək poetizmi ilə də diqqət çəkir.

Hüseyn Cavid romantizminin yaradıcı təcəssümü olan "Ana" dramındakı Səlma ana obrazı da Şərq müdrikliyinin ali səviyyədə nümayişi kimi ədibin yaradıcılığında təqdirəlayiqdir. Onun qəhrəmanı Səlma ana nə qədər tərəddüdlər içində olsa da, son qərarını verərkən yeganə oğlunun qatilini əhv edir, bu hərəkəti ilə əsl mənəvi böyüklük göstərir:

Ah, fəqət;
Oğlumun ruhu bəlkə eylər nifrət,
Bəlkə məndən incinir, çünki şimdi
Qan dökməyə əsla riza vermədi.
Həm mültəci, həm qərib, həm müsafir;
Xayır, vicdanım olmaz buna qadir.
Bir də hər nə yapsam bu dərdi silməz,
Məhv olsa aləm, Qanpolad dirilməz,
Xayır, əhv etməli!.. Getsin də miskin
Xəcalətdən ölsün, yerlərə keçsin! [2, 53]

Cavid yaradıcılığı boyunca daima insanpərvərlik, humanizm mövqeyindən çıxış edərək ən müxtəlif mövzulu əsərlərində bu cəhəti ön planda saxlamışdır. Hüseyn Cavid irsi milli ədəbiyyatın və dünya romantizminin qabaqcıl ənənələri əsasında kamilləşmiş, Azərbaycan bədii fikri də məhz həmin ideya-estetik xüsusiyyətlərlə zənginləşmişdir.

**ƏDƏBİYYAT:**

1. Cavid H. Əsərləri. Beş cilddə. I cild. Bakı, 2005, 256 səh.
2. Cavid H. Əsərləri. Beş cilddə. II cild. Bakı, 2005, 252 səh.
3. Cəfər M. Hüseyn Cavid. Bakı, 1960
4. Əliyev K. XX əsr Azərbaycan romantizminin ədəbi-nəzəri görüşləri. Bakı, 1985
5. Qarayev Y. Hüseyn Cavidin yaradıcılığı. Ön söz. Cavid H. Əsərləri. Beş cilddə. I cild. Bakı, 2005, səh. 7-24

**SUMMARY**

Huseyn Javid's creativity occupies a particular place in the history of Azerbaijani romanticism. Javid's romantic heroes have been seeking solution for many problems of humanity in the light of remnants of the era. As a prominent thinker of his time, Huseyn Javid had clearly demonstrated his artistic-philosophical concept in own creativity. The master's romanticism has an important role in studying the human spirit as well as its attitude to the real world. Javid was a truth lover, was seeking truth in the face of romantic heroes, and even, in this regard, had given a special place to unrealistic characters in his creativity.